Proqramda iştirak etmək arzusunda olan namizədlər üçün müəyyən edilmiş tələblər aşağıdakılardır:

· *namizəd ali təhsilli olmalı;*

· *ingilis dilini yüksək səviyyədə bilməli;*

· *tibbi cəhətdən sağlam olmalı;*

· *namizəd əvvəllər KOICA tərəfindən həyata keçirilmiş proqramlarda iştirak etməməlidir.*

Proqram çərçivəsində bütün xərclər KOICA tərəfindən ödənilir.

Proqramda iştirak etmək arzusunda olan namizədlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *KOICA ərizə forması;*
- *Koreaya İnkişaf İnstitutunun ərizə forması;*
- *əsaslandırma (motivasiya) məktubu;*
- *iki ədəd tövsiyə məktubu;*
- *diplom və diplom əlavəsinin notarial qaydada təsdiq edilmiş surəti;*
- *TOEFL və ya IELTS sertifikatı (əgər varsa);*
- *iş haqqında arayış (əgər varsa);*
- *şəxsiyyət vəsiqəsi və ya xarici pasportun surəti;*
- *3 x 4 ölçüdə iki ədəd fotoşəkil;*
- *CV.*

**QEYD: ingilis dilində olmayan bütün sənədlər bu dilə tərcümə olunmalı və notarial qaydada təsdiq edilməlidir.**

Məlumatları və ərizə formalarını aşağıdakı linklərdən yükləyə bilərsiniz:

KOICA application form

Program information

Application checklist and form

Təqaüd proqramında iştirak etmək arzusunda olan namizədlər sənədlərini 19 noyabr 2009-cu il tarixinə qədər Təhsil Nazirliyinin Beynəlxalq əlaqələr şöbəsinə təqdim etməlidirlər (Könül Məhərrəmova - tel: 496 33 11; dax: 251).